# Şəhidliyin ünvanı əbədiyyətdir

**Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyünün tam olması ölkə vətəndaşlarının illərlə ürəyində yaşatdığı, uğrunda mübarizə apardığı ən müqəddəs arzusu olub. Bu mübarizə yolunda canından keçən şəhidlərimiz, igid oğullarımız hər zaman xalqımızın qəhrəmanlıq tarixində yaşayacaq və xatırlanacaq. Qəhrəmanlarımızın şərəfli ömür yolu müasir gəncliyə bir örnək, məktəbdir.**

**Azərbaycanın elə bir bölgəsi, elə bir kəndi tapılmaz ki, orada bir şəhid məzarı olmasın. Azərbaycan torpağının hər qarışında bir qəhrəmanlıq dastanı yaşayır. Belə şərəfli ömür sahiblərini xatırlamaq, daim yad etmək, onların qəhrəmanlıqlarını gənc nəsillərə çatdırmaq isə hər birimizin müqəddəs borcudur.**



***Vətənini ürəkdən sevən, onun yolunda canından keçən mərd oğullarımız arasında onlar da vardı. Naxçıvan torpağının igidləri şəhid Məmmədzadə Pərviz Zahid oğlu, şəhid Məmmədov Araz Qəhrəman oğlu və şəhid Hüseynov Mətin Ramiz oğlu.***

Bu günlərdə doğulduqları ata-baba yurdunda cəsur oğullarımızın anım mərasimləri böyük ehtiramla qeyd edilib.

Bu münasibətlə Naxçıvan şəhər Qaraxanbəyli və Tumbul kəndlərində keçirilən tədbirdə şəhid Məmmədzadə Pərviz Zahid oğlu və şəhid Məmmədov Araz Qəhrəman oğlu yad olunub. Tədbirdə şəhid ailələri, qazilər, Naxçıvan şəhər İcra Hakimiyyətinin vəzifəli şəxsləri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatları, idarə, müəssisə və təşkilatların əməkdaşları, polis şöbəsinin rəhbərliyi, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin kollektivi, şəhidin döyüşçü yoldaşları və hərbi hissənin zabit heyəti iştirak ediblər.

Mərasimdə ümummilli lider Heydər Əliyevin və torpaqlarımızın işğaldan azad olunması uğrunda canlarından keçmiş bütün şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirdə çıxış edən dövlət rəsmiləri bildiriblər ki, 44 gün davam edən Vətən müharibəsi Azərbaycan xalqının, onun Liderinin və şanlı Ordumuzun qüdrətini bütün dünyaya nümayiş etdirdi. Qeyd olunub ki, bu tarixi Zəfər Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun göstərdiyi şücaətin nəticəsidir. Bu Qələbə sayəsində işğaldan azad olunmuş ərazilərimizdə üçrəngli Azərbaycan bayrağı dalğalanır və Azərbaycan dövləti daha da qüdrətlənir.

Bu fikirlərə qoşulan digər çıxış edənlər də şəhid Pərviz Məmmədzadənin və Araz Məmmədovun şərəfli həyat və döyüş yolundan söz açıblar, Vətən müharibəsində igid oğullarımızın göstərdiyi fədakarlıq və qəhrəmanlıq nümunələrini vurğulayıblar.

Sonda şəhidlərin məzarı ziyarət olunub, üzərinə tər güllər düzülüb, ruhuna dualar oxunub.

***Pərviz Məmmədzadə 2015-ci ildə Naxçıvan şəhərindəki Heydər Əliyev adına Hərbi Liseyə daxil olub.*** 2018-ci ildə liseyi bitirərək hərb sənə-



tini daha dərindən öyrənmək üçün kursant kimi Bakıdakı Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində təhsilini davam etdirib. O, 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsində iştirak edib və torpaqlarımızın xilası uğrunda döyüşüb. Qəhrəmanımız 2020-ci il noyabrın 6-da Xocavənd istiqamətində gedən döyüşlərdə şəhid olub. Prezident İlham Əliyevin Sərəncamına əsasən, "Vətən uğrunda" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.

***Şəhid Məmmədov Araz 2020-ci ilin iyulunda könüllü olaraq ordu sıralarına qoşulmaq qərarına gəlmişdi.*** Xüsusi təyinatlı Qüvvələrin 3 aylıq kursunu bitirdikdən sonra MAHHXHQ kimi xidmət etməyə başlamışdır. II Qarabağ müharibəsinə könüllü olaraq yollanıb. Son dəfə Şuşa azad olan gün Şuşadan anasına zəng edən Araz ertəsi gün qəhrəmancasına şəhid olub. Həmin günlərlə Arazdan xəbər ala bilməyən ailə noyabrın 18-də hərbi komissarlıqdan aldığı cavabla Arazın şəhid olduğu xəbəri öyrənirlər. Noyabrın 19-da şəhidin nəşi Tumbul kənd məzarlığında torpağa tapşırılıb.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin Sərəncamları ilə şəhid Məmmədov Araz Qəhrəman oğlu "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunub.

***Vətən müharibəsi zamanı şəhidlik zirvəsinə ucalan Mətin Hüseynovun anım tədbiri isə Ordubadın Düylün kəndində keçirilib.*** Tədbirdə Ordubad Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Rəhimli, hüquq və mühafizə orqanlarının rəhbər şəxsləri, icra hakimiyyətinin, idarə, müəssisə və təşkilatların əməkdaşları, şəhid ailələri, müharibə iştirakçıları, məktəb kollektivləri və ictimaiyyət nümayəndələri iştirak ediblər.



İlk olaraq şəhidimizin məzarı ziyarət olunub, üzərinə gül dəstələri düzülüb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Ümummilli lider Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarından keçən vətən övladlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, şəhidlərin ruhuna dualar oxunub.

Çıxış edənlər şəhid Mətin Hüseynovun igidlik və fədakarlıq nümunəsi olan həyat yolundan bəhs ediblər. Bildirilib ki, Vətən müharibəsinin ilk günlərindən etibarən Mətin Füzuli, Cəbrayıl və Xocavənd istiqamətlərində gedən ağır döyüşlərdə böyük şücaət göstərib. Döyüş yoldaşlarının söylədiklərinə görə, o, hər zaman ön sırada gedən, yoldaşlarını qoruyan, verilən tapşırıqları dəqiqliklə yerinə yetirən cəsur və qorxmaz bir hərbçi olub. Onun igidliyi, döyüşlərdəki əzmkarlığı və Vətən sevgisi gələcək nəsillər üçün əsl vətənpərvərlik nümunəsi kimi dəyərləndirilib.

Çıxışlarda vurğulanıb ki, Ali Baş Komandan İlham Əliyevin sərkərdəlik məharəti, xalqımızın həmrəyliyi və Ordumuzun qəhrəmanlığı sayəsində torpaqlarımız işğaldan azad edilib. Mətin kimi mərd Vətən oğullarının göstərdiyi fədakarlıq bu Zəfərin əsas sütunlarından biridir və onların əziz xatirəsi xalqımızın qəlbində əbədi yaşayacaq. Qeyd olunub ki, ölkə başçısının tapşırığına əsasən şəhid ailələrinə və müharibə iştirakçılarına göstərilən diqqət və qayğı davamlı xarakter daşıyır, onların üzləşdiyi bütün məsələlərin həlli istiqamətində ardıcıl addımlar atılır.

Şəhid Hüseynov Mətin Ramiz oğlunun xidmətləri dövlət tərəfindən yüksək qiymətləndirilib. O, "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və " İgidliyə görə" medalları və III dərəcəli "Rəşadət" ordeni ilə təltif edilib. Bu medallar Mətinin döyüş meydanında göstərdiyi şücaətin və Vətənə sədaqətinin bariz nümunəsidir.

Tədbirin sonunda məktəblilər tərəfindən şəhidlərin xatirəsinə həsr olunmuş vətənpərvərlik mövzusunda şeirlər səsləndirilib, qəhrəmanlarımızın ruhuna bir daha ehtiram ifadə olunub.

***Bəxtiyar ƏLİYEV***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***
***"Naxçıvan Şəhid Ailələri" İctimai Birliyinin mətbuat katibi***